**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNIVERSITETI**

**Magistratura pilləsi üçün**

**İXTİSAS: 060112 - COĞRAFIYA MÜƏLLIMLIYI**

**İF-M100015 "COĞRAFİYANIN TƏDRİSİ METODİKASININ MÜASİR PROBLEMLƏRİ"**

**fənninin**

# P R O Q R A M I

**Bakı Dövlət Universiteti TMŞ yanında Tədris vəsaitlərinə nəşr hüququnun (qrif) verilməsi üzrə daimi fəaliyyət göstərən Komissiyanın qərarı ilə təsdiq edilmişdir ( protokol № )**

## COĞRAFİYANIN TƏDRİSİ METODİKASININ MÜASİR PROBLEMLƏRİ

### İzahat vərəqi

«Coğrafiya tədrisi metodikasının müasir problemləri" fənni "Coğrafiya müəllimliyi" istiqamətində «Coğrafiyanın tədrisi metodikası və metodologiyası» ixtisası üzrə magistratura pilləsinin I kursun I semestrində 30 saat (15– mühazirə, 15- məşğələ ) həcmində tədris edilməsi nəzərdə tutulmuşdur. Proqram yüksək ixtisaslı coğrafiya müəllimlərinin peşə hazırlığında mühüm əhəmiyyətə malikdir. Belə ki,«Coğrafiya tədrisi metodikasının müasir problemləri" proqramının tədris edilməsində əsas məqsəd gələcək coğrafiya müəllimlərini müasir dövrdə təhsil islahatlarının tətbiq edilməsinin tərkib hissəsi kimi məktəb coğrafiyasında baş verən dəyişiklikləri, kurikulum çərçivəsində fənnin ayrı-ayrı siniflər üzrə məzmunu, tədris prosesində diqqət tələb edən yenı istiqamətləri öyrətməkdir. Bu fənn əsasən nəzəri -metodik məsələləri əhatə edir və magistr hazırlığında tədqiqatçılıq qabiliyyətini formalaşdırır.

"Coğrafiya tədrisi metodikasının müasir problemləri" kursunun məzmunu ilə dərindən tanış olan magistrlar sonrakı mərhələdə coğrafiya kurikulumunun mahiyyəti ilə tanış olur. Kurs coğrafi biliklərin nəticəyönümlü standartlarını daha dərindən öyrənilməsi üçün ilkin baza rolunu oynayır. Fənnin məzmununda coğrafiyanın tədrisi metodikasınını bir elm kimi formalaşması, dünyanın müxtəlif ölkələrində məktəb coğrafiyasının quruluşu, tədrisi problemləri, coğrafiya kurikulumunda fiziki, iqtisadi, sosial coğrafiya və iqtisadiyyatın əsaslarına dair biliklərin öyrədilməsi, Coğrafiya kurikulumunda

Azərbaycanın coğrafiyasının yeri, müasir coğrafiya dərsi və onun təhlili, coğrafi biliklərin dərk edilməsi yollarını əhatə edir.
"Coğrafiya tədrisi metodikasının müasir problemləri" kursunun tədrisində tələbələr:
***Bilməlidir:***
-coğrafiyanın tədrisi metodikasının məzmununda mövcud olan problemləri üzə çıxarmağı;
-problemlərin yaranma səbəblərini izah etməyi;
- problemlərin yaratdığı çatışmazlıqları təhlil etməyi.
***Bacarmalıdır:***
-coğrafiyanın tədirsi metodikasının müasir problemlərinin həlli yollarını təhlil etməyi;
-dünyanın müxtəlif ölkələrində coğrafiyanın tədrisi metodikasında baş verən dəyişiklikləri müqayisə etməyi.
***Yiyələnməlidir:***
- müasir problemlərin həlli yollarında normativ və yaradıcı yanaşmaya;
-coğrafiyanın tədrisi metodikasının müxtəlif istiqamətlərində tədqiqat aparmaq üçün tələb olunan səriştəyə.
Proqram həmdə magistr dissertasiyası üzərində müstəqil tədqiqatlar aparılmasında yardımçı vasitə rolunu oynaya bilər.

**Mövzülar üzrə saatların paylanması**

| № | Mövzular | cəmi | ocümlədən | |
|---|---|---|---|---|
| | | | müh | sem. |
| 1. | Coğrafiyanın tədrisi metodikasınını bir elm kimi formalaşması. | 4 | 2 | 2 |
| 2 | Qloballaşma və dünya təhsil məkanına inteqrasiya məsələləri | 4 | 2 | 2 |
| 3 | Məktəb coğrafiyasında məzmun dəyişiklikləri və yaranan problemlər | 4 | 2 | 2 |
| 4 | Coğrafiyanın tədrisində dərslik komponenti ilə təminat problemi | 4 | 2 | 2 |
| 5. | Coğrafiya fənni üzrə əyani vəsait problemi | 4 | 2 | 2 |
| 6. | Müasir coğrafiya dərsinin təşkili problemləri | 4 | 2 | 2 |
| 7. | Şagirdlərin praktik fəaliyyətinin təşkili prosesində mövcud | 4 | 2 | 2 |

| | | | | |
|---|---|---|---|---|
| | problemlər və onların həlli yolları | | | |
| 8 | Coğrafi biliklərin qiymətləndirilməsi və mövcud problemlər | 2 | 1 | 1 |
| | Cəmi | 30 | 15 | 15 |

**1. Coğrafiyanın tədrisi metodikasınını bir elm kimi formalaşması.**
CTM –in yaranması və formalaşması.CTM-in əsas vəzifələrinin dəyişməsi. Coğrafiya tədrisində "hafizə" məktəbindən "təfəkkür" məktəbinə keçidin çətinlikləri. Təhsil fəlsəfəsi. Müstəqillikdən sonrakı dövrdə və onun dəyişməsi. Coğrafiya fənni üzrə ixtisaslı kadrların hazırlığı problemləri. Kadr çatışmazlığı. Coğrafiya fənni üzrə müəllim hazırlığı. Coğrafiya müəllimlərinin ixtisasartırması və yaranan problemlər.Coğrafiya tədrisi metodikasının müasir problemlərinın öyrənilməsi üçün qəbul edilən modullar.Ali məktəblərdə coğrafi fənlər bloku, ali məktəb coğrafiyasının quruluşu, tədrisi problemləri Coğrafiya ixtisası və coğrafiyanın tədrisi metodikası üzrə elmi tədqiqat işlərinin əsas istiqamətləri. Qabaqcıl coğrafiya müəllimlərinin seçilməsi. Yüksək keyfiyyətli müəllimlik peşəsinin formalaşdırılması(1), (10), (11).

**2.Qloballaşma və dünya təhsil məkanına inteqrasiya məsələləri**
Dünyanın müxtəlif ölkələrində məktəb coğrafiyasının quruluşu, tədrisi problemləri. Xarici ölkələrində məktəb coğrafiyasının məzmunu və Azərbaycan Respublikası ilə müqayisəsi..Xarici ölkələrdə inteqrasiya edilmiş coğrafiya proqramları. ABŞ və Qərbi Avropa, Yaponiya, Rusiya Federasiyası, Türkiyə və s. ölkələrində məktəb coğrafiyasının quruluşunun müqayisəli təhlil.Dünyanın müxtəlif ölkələrində ali məktəb sisteminin quruluşu.Boloniya sistemi.. ABŞ və Qərbi Avropa ölkələrində ali məktəb coğrafiyasının quruluşu. Pedaqoji təcrübənin təşkil edilməsinin müxtəlifliyi (1), (8), (10), (11).

**3.Məktəb coğrafiyasında məzmun dəyişiklikləri və yaranan problemlər**.
Coğrafiyanın tədrisi metodikasının ənənvi və müasir məzmunun müqayisəli təhlili.Məktəb proqramında aparılan dəyişikliklər. Ənənəvi məktəb coğrafiyasının strukuru. Məktəb coğrafiyasının konsentrik quruluşu. Kurikuluma qədərki və kurikulum mərhələsində məktəb coğrafiyasının müqayisəsi.Bilikyönümlü proqramlardan nəticəyönümlü proqramlara keçid və onun çətinlikləri.Coğrafiya kurikulumunun strukturu və məzmunu. Məzmun xətləri onların funksiyaları. Məzmun standartları. Məzmun standartın bilik və fəaliyyət komponentləri və onların praktiki əhəmiyyəti. Coğrafiya fənni üzrə fəaliyyət xətləri.. Coğrafiya təlimində konstruktivizm və sitiuativ baxış . Coğrafiya kurikulumunda fiziki coğrafi bilklərin, Azərbaycanın coğrafiyasının, iqtisadiyyatın əsasları. iqtisadi və sosial coğrafiyanın yeri. Ali məktəb ilə orta məktəb coğrafiya kurslarının məzmununun fərqli olması(1), (7), (9),(11).

**4.Coğrafiyanın tədrisində dərslik komponenti ilə təminat problemi**
Ənənəvi dərsliklıər və onların təhlili. Təhsil islahatında dərslik siyasəti. Kurikulum üzrə yazılan dərləklərə verilən tələblər. Dərliklərin planlaşdırılması, yazılması və istehsalı. Dərsliklərin qiymətləndirilməsi meyarları. Dərslik komplektinin tərkibi. Dərslikdən istifadə bacarığının formalaşdırılması. Müəllim üçün vəsaitlərin tərtib edilməsində yaranan problemlər. Dərliklərin təhlili. Ekspert rəylərinin ümumiləşdirilməsi. Coğrafiya fənni üzrə iş dəftərlərinin əhəmiyyəti. ( 1), (3),(7),(11).

**5.Coğrafiya fənni üzrə əyani vəsait problemi**

Əyani vəsaitlərin əhəmiyyəti. Coğrafiya fənni üzrə əyani vəsaitlərin təsnifatı. Xəritələr coğrafiyanın tədrisində ən mühüm əyani vəsait kimi. Bakı Xəritəçəkmə Fabrikində istehsal olunan xəritələr. Xəritə çatışmazlığı problemi. Model və maketlərin hazırlanması. Tədris xəritələrin hazırlanmasına verilən tələblər. məktəb atlasları. Kontur xəritələrə verilən tələblər.Maddi texniki bazanın əhəmiyyəti. İKT dən istifadə problemləri. Coğrafiya kabinetlərinin müasir vəziyyəti. Coğrafiya meydançalarının qurulması və mövcud problemlər (1), (3),(7),(11).

**6. Müasir coğrafiya dərsinin təşkili problemləri**

Müasir coğrafiya dərsinin ənənəvi dərslərlə müqayisəsi.Dərsin məqsədlərinin (inkişafetdirici, öyrədici, tərbiyəedici) müəyyən edilməsi. Cari və illik planlaşdırmanın tərtib edilməsində problemlər. Fəal (interaktiv) metodlardan istifadə problemləri. Fəal təlim üçün düzgün təlim strategiyalarını və müvafiq təlim üsullarının seçilməsi. Dərs üsullarının dərsin mərhələlərinə uyğunlaşdırılması. Təlimə uyğun iş formalarının seçilməsi. Coğrafiya dərsinin mərhələləri. Dərs prosesinə hazırlıq. Dərs icmallarına verilən tələblər.. Nümunəvi icmalların hazırlanması. Coğrafiya dərsinin analizi. Coğrafiya dərsinin qiymətləndirilməsi. Müasir dövrdə müəllimlərin fəal dərs nümunələrinin qurması üçün hazırlıq səviyyəsi. Müasir coğrafiya dərsinin təşklilində mövcud olan obyektiv və subyektiv səbəbləri. Müəllimlərin hazırlığında çatışmazlıqlar. ( 1), (3),(7),(11).

**7.Şagirdlərin praktik fəaliyyətinin təşkili prosesində mövcud problemlər və onların həlli yolları**

Nəticəyönümlü məqsədlərin yerinə yetirilməsində şagirdlərin praktik fəaliyyətinin təşkil edilməsi. Coğrafi biliklərin tətbiq edilməsində istifadə olunan forma və metodlar. XXI əsrin bacarıqlarının coğrafiya dərslərində formalaşdırılması. Bilklərin dərk edilməsində yaranan problemlər. Öyrətmə nəzəriyyələri.Coğrafiya fənni üzrə layihə, təcrübə və müşahidələrin yerinə yetirilməsindəki problemlər. Eksursiyaların təşkil edilməsi və mövcud problemlər. Şagirdlərin fərdi, cütlər və qrup şəklində fəaliyyətinin təşkilində mövcud problemlər.Müxtəlif üsullarla dərketmə yolları. H.Qardnerin müxtəlif üsullarla dərketmə nəzəriyyəsi.

Biliklərin dərk edilməsinin coğrafiya dərslərində tətbiqi. (7), (8), (9), (11).

**8.Coğrafi biliklərin qiymətləndirilməsi və mövcud problemlər**

Təlim nəticələrinin müəyyən edilməsi. Coğrafiyanın tədrisində təlim məqsədiləri ilə qiymətləndirmə meyarlarının əlaqəsi.Qiymətləndirmə meyarlarının fəaliyyət xətləri ilə uyğunlaşması. Qiymətlənidirmə materiallarının tərtib edilməsi. Biliklərin qiymətləndirilməsində müəllimlərin qarşılaşdığı problemlər. Yeni qiymətləndirmə sisteminin tətbiq edilməsindəki çətinliklər. Coğrafiya fənnindən test tapşırıqlarının tərtib edilməsi. Summativ qiymətləndirmənin təşkil edilməsi(1), (2),(3), (7), (8), (11).

## Ədəbiyyat

**Əsas**

1. Seyfullayeva N.S, Coğrafiyanın tədrisi metodikası, Ali məktəb üçün dərslik. Bakı. "EMK" nəşriyyatı 2001. 489 s.
2.Seyfullayeva N.S, Rakçiyeva İ.F, Şabanova Y.Ə. "Coğrafiya" Müəllim üçün vəsait. VI sinif üçün. Bakı nəşriyyatı. 2013, 160 s.
3. Qəribov Y.Ə, Seyfullayeva N.S, Hümbətova Ş.H, Şabanova Y.Ə, İsmaylova T. "Coğrafiya" Müəllim üçün vəsait. VII sinif üçün metodik vəsait. Bakı nəşriyyatı 2014. 140 s.

4. Əlizadə Ə.H. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı, “Pedaqogika” nəşriyyatı, 2004, 356 s.
5. Əlizadə E.K, Seyfullayeva N.S, Rakçiyeva İ.F, Şabanova Y.Ə. “Coğrafiya” VI sinif üçün dərslik, Bakı nəşriyyatı. 2013. 160 s.
6. Qəribov Y.Ə, Seyfullayeva N.S, Hümbətova Ş.H, Şabanova Y.Ə, İsmaylova T. “Coğrafiya” VII sinif üçün dərslik . Bakı nəşriyyatı , 2014, 140s.

**Əlavə**

7. Veysova Z. A. Fənn müəllimləri üçün ixtisasartırma təhsilinin 2-ci modulu üzrə “Ümummi orta təhsil səviyyəsi üçün yeni fənn kurikulumlarının tətbiqi Coğrafiya fənni üzrə təlimçilər üçün vəsait “İnkişaf” elmi mərkəzi, 2014, 168 s.
8. Süleymanova A.Y, Təhsilin əsasları, Dərs vəsaiti Bakı “Təhsil” nəşriyyatı , 2014, 399 s.
9.Qəndilov R. və başaqalarıHəyati bacarıqlara əsaslanan təhsil.UNİCEF (müəllimlər üçün vəsait X-XI siniflər) Bakı. “Təhsil” nəşriyyatı, 2009, 246 s.
10. “Kurikulum” Elmi-metodik jurnalı. 2014, 152 s.
11. www. Kurikulum.az